

Kəmaləddin Qədim

## YER TAPMADIM

*Atamın, anamın məzarları önündə...*

Gəlmiş idim sonunuza,
Sonunuzda yer tapmadım.
Biçilmişdi boyunuza,
Donunuzda yer tapmadım...

Qalmamışdı yadınız da,
Alınmayan qadanız da.
Çəkilməyən adınızda,
Sanınızda yer tapmadım...

Daş döydüm, daş, daşınıza,
Axıtdım yaş daşınıza.
And içdim başdaşınıza,
Canınızda yer tapmadım...

Bu necə halıydı, necə,
Şəkərdi, balıydı necə.
Ölüb qalmalıydı necə...
Yanınızda yer tapmadım...

## EVİM-EŞİYİM

Sənsiz nələr çəkdiyimi,
Bilirdin, evim-eşiyim.
Gəlib tez-tez yuxuma da,
Girirdin, evim-eşiyim...

Qibləyəydi yönün mənsiz,
Səsin mənsiz, ünün mənsiz.
Bilirdim bir günün mənsiz,
Bir ildi, evim-eşiyim...

Yenə gülür üzün bol-bol,
Ağac-ağac, gül-gül, kol-kol.
Cığır-cığır, iz-iz, yol-yol,
İrildin, evim-eşiyim...

Qalmışdın boş qəfəs kimi,
Gəldim dəli həvəs kimi.
Çəkdin məni nəfəs kimi,
Dirildin, evim-eşiyim...

## YA, İŞIQGƏLƏNDİ, YA, İTHÜRƏNDİ...

Bizim elə iki yolumuz olub,
Ya, işıqgələndi, ya, ithürəndi...
Elə davamıyıq keçilmiş yolun,
Ya, işıqgələndi, ya, ithürəndi...

Kətil həmin kətil, elə, dar həmin,
Vaxtsız çiçəkləyən badamlar həmin.
Həmindi yenə də adamlar, həmin,
Ya, işıqgələndi, ya, ithürəndi...

Hər gün təzə xeyir, təzə şər çıxır,
Bəzəkli-düzəkli, təzə-tər çıxır.
Qarşına gecikmiş sevgilər çıxır,
Ya, işıqgələndi, ya, ithürəndi...

Xəbər var can verir daşa can, xəbər,
Bəzən də yaşamır başacan xəbər.
Yenə də xəbər var Şuşadan, xəbər,
Ya, işıqgələndi, ya, ithürəndi...

Həmin çəkilməzdi, ağırdı dünya,
Nə bitdi, nə də ki, dağıldı dünya.
Təpədən-dırnağa nağıldı dünya,
Ya, işıqgələndi, ya, ithürəndi...

## DAHA NƏ FƏRQİ VAR...

Qoşulub beləcə günün boşuna,
Nə əldən-ayaqdan, haldan düşəsən...
Nə də qaxınc ola ömür başına,
Yaşayıb abırdan, ardan düşəsən...

Dünyada bəxtmi var qara gəlməyən,
Tuş olub borana, qara, gəlməyən?..
Lap elə bir arzun kara gəlməyə,
Düşəsən, lap elə kardan düşəsən...

Nolar sıxılasan sıxılanda da,
Sıradan çıxasan çıxılanda da.
Deyirəm, kaş elə yıxılanda da,
Çətindən yıxılıb, dardan düşəsən..

Özünlə davan da özündən düşə,
Yanğın da odundan, közündən düşə.
Ay özü özünün gözündən düşən,
Daha nə fərqi var hardan düşəsən?..

## TUTURLAR

Gör necə qoyurlar adam yerinə,
Adını adlara tay da tuturlar...
Qoymurlar qalasan dərdsiz, kədərsiz,
Hər dərddən, kədərdən pay da tuturlar.

Nə boyda ara var yanından tora,
Düşmək keçməsə də canından tora.
Gör necə salırlar qanundan tora,
Boyuna gör necə qayda tuturlar...

Çıx üstə, qurusun çay, cəhənnəmə,
Doğmasın üzünə ay, cəhənnəmə.
Özünün saydığı say cəhənnəmə,
Fələyin saydığı sayda tuturlar...

Necə biləsən ki, yaxın kimsəni,
Hələ qorxudursa yuxun kimsəni.
Çəkirsən, tutmayır ahın kimsəni,
Elə, ahını da göydə tuturlar...

## YOXMU?..

Keçən keçib, olan olub,
Heç mənimlə qalan yoxmu?
Tanrım, topla, yığ başıma,
Başqa yurdu talan yoxmu?..

Köhnə dərdlərnən qalmışam,
Saçlarına dən salmışam.
Qocaldıb, əldən salmışam,
Təzə dərdin, bəlan yoxmu?..

Yollaşmışam nə vermisən,
Demisən çəkər, vermisən.
Bu boyda şəkər vermisən,
Məndən şirin balan yoxmu?..

Nə tutandı, nə yeyilən,
Hələ çörək, duz deyilən.
Nə ac, nə susuz deyiləm,
Yalançında yalan yoxmu...

Nə qalıb ki, gör, adamlıq,
Deyilmiş ki, yer adamlıq...
Yan-yörəndə bir adamlıq,
Bir künc yoxmu, dalan yoxmu?..

## YAMAN BƏNZƏYİRİK BİR-BİRİMİZƏ...

Yaman bənzəyirik bir-birimizə,
Eyniyik beləcə hamımız, eyni.
Həyat bal kimidi hər birimizə,
Dadımız eynidi, tamımız eyni...

Enəndə, düşəndə düşmənlərimiz,
Ucalıb, qalxanda dostlarımız bir.
Özümüz kimidi dərdi-sərimiz,
Üzümüz bir cürdü, astarımız bir...

Elə, tərs üzüyük bir-birimizin,
Doğruya yönəlib, düzə gəlmədik.
Oldu meydanımız daldalar bizim,
Gəlmədik, heç zaman üzə gəlmədik.

Hələ də gözümüz haqqa yumulu,
Gör nəyin ucundan ölürük elə...
Nəfsin nökəriyik, gödənin qulu,
Öləndə acından ölürük elə...

Yarış düzəldirik, bəhs çıxardırıq,
Yumruqdan eyniyik, təpikdən eyni.
Gör necə eyni cür səs çıxardırıq,
Elə, hər alqışdan, çəpikdən, eyni?..

Yaxşı ki, hərəni bir ölüm bəklər,
Gecəmiz son qoyar gündüzə bir gün.
Yaxşı ki, ayrıca dəfn edəcəklər,
Gələsi deyilik üz-üzə bir gün...

## SƏNLİK DEYİL

Canım, bura sən deyən,
Güllük-çəmənlik deyil.
Dəni sərçəlik deyil,
Sərçəsi dənlik deyil.

İçində bəlli yaşın,
İtir ağlın, yaddaşın.
Dərdli, bəlalı başın,
Dumanlıq, çənlik deyil.

Göz açıqdı, baş açıq,
Gir içində yaşa, çıx.
Sonuna var, başa çıx,
Həyatdı... Tənlik deyil...

Hələ elə bilirsən,
Çatacaqsan yürürsən...
Bir ömürdü sürürsən,
Əyləci sənlik deyil...

## ÇIXAR

Gələn paşa-paşa gələr,
Çıxan paşa-paşa çıxar.
Yerli gəlib yersiz olmaz,
Gəlmədisə xoşa, çıxar...

Adamdan ki, mələk olmaz,
Qoymaz yalan, kələk , olmaz.
Arzuların gerçək olmaz,
Ümidlərin boşa çıxar...

Köklənib də bu sim dərdə,
Dolanarsan pərdə-pərdə.
Başa gələn çəkilər də,
Ondandı dərd başa çıxar...

Baxarsan dörd yana, oyun,
Hopub cana, qana oyun.
Oynana-oynana oyun,
Olar da tamaşa, çıxar...

Minarə Bağırlı

# İTİRDİK

*(Ustad şairimiz Zəlimxan Yaqubun ölümü münasibətilə)*



Söz tapmıram, qələm aciz, nə deyim?
Bu dünyada bir dünyanı itirdik
Möcüzəydi, möcüzələr içində
Söz sərrafı, Zəlimxanı itirdik.

Axıb getdi gözümüzün yaşında
İnci idi üzüklərin qaşında
Saz çalındı məzarının başında
Bir dəryanı, bir ümmanı itirdik.

Deməzdim ömürdən bezdi getdi o,
Dərdə çox mərdanə dözdü getdi o,
Yazdı, ölümünü yazdı getdi o
Əfsanəvi qəhrəmanı itirdik.

Dərdinnən nə küsdü, nə də ağladı
Ümidini tək Tanrıya bağladı
Ölümüylə ürəkləri dağladı
O əlçatmaz asimanı itirdik.

Neyləyəydik, Tanrı verdi fərmanı
Tapılmadı ağır dərdin dərmanı
Aciz idi şəfa verən loğmanı
Bir əvəzsiz bir insanı itirdik.

O, dönmüşdü sehirli bir nağıla
Heyran idik o zəkaya, ağıla
Çətin bir də Zəlimxannan doğula,
Şeirimizdə bir sultanı itirdik.

Tarixlərdə şeir sözlə qalacaq
Yandırdığı odla, gözlə qalacaq
Ay Minarə, ruhən bizlə qalacaq
Zəlimxanı, biz cismani itirdik
Heyif, heyif Zəlimxanı itirdik.

## ZAVAL HƏMİN ZAVALDISA...

Gedən getdi, nə fərqi var,
Gələnindi nə qaldısa...
Bu ad, şöhrət, şan dediyin,
Belə şirinsə, baldısa...

Sənindi sovrulan zəmi,
Şələlə qəm üstdən qəmi.
Həmindisə bəla, həmin,
Zaval həmin zavaldısa...

İçində düyünün, toyun,
Dərdlərinlə ol qol-boyun.
Həminsə oynanan oyun,
Həmin zurna-qavaldısa...

Toxuyan torun toxuyur,
Dördbir yanı qan qoxuyur.
Elə durmadan oxuyur,
Bitmək bilmir nə valdısa...

Yaşayıb sevsin nəyini?..
Adam ki öz ürəyini;
Yanan, köz-köz ürəyini,
Göz yaşıyla suvardısa...

## ÇƏKMƏYƏ DƏRD OLACAQ...

Yaşamaq budu, canım,
Min cürə şərt olacaq...
Hər gün yol gözləməkdən,
Gözlərin dörd olacaq.

Boğul suçda, günahda,
Ya "Allaha pənah"da.
Bu gün də var, sabah da
Beş-altı mərd olacaq...

Çıxammırsan, nə dikdi,
Ruhun canda bezikdi.
Bu yaz da çox gecikdi,
Bu qış da sərt olacaq...

Baxma aza, kasada,
Öl öldüyün masada.
Qorxma, nə olmasa da,
Çəkməyə dərd olacaq...